# Azərbaycan teatrının 2019-cu ili

*çoxaspektli icmal*



**Elçin Cəfərov**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Artıq 2019-cu ilin sonlarına yaxınlaşırıq. Başa vurmaq üzrə olduğumuz il Azərbaycan teatrı üçün kifayət qədər məhsuldar olub, desəm, zənnimcə, mübaliğəyə yol vermiş olmaram. Çünki bunu mən demirəm, faktlar və rəqəmlər deyir. Ümumiyyətlə, biz hissə qapıla, ümidsizliyə yuvarlana, yaxud yersiz optimistlik nümayiş etdirə bilərik. Faktlar isə heç vaxt aldatmır. Əlqərəz, keçək faktlara.

Əvvəla, onu xatırladım ki, 2019-cu il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının zaman hüdudlarını işarətləyən sonuncu ildir. Yəni, 2019-cu ildə sözügedən proqram çərçivəsində görülən işlər yekunlaşmalı və yeni mərhləyə keçidin başlanğıcı qoyulmalı idi.



## ERQONOMİK ASPEKT

Yenicə təmirdən çıxaraq, kollektivin ixtiyarına verilmiş Şuşa Teatrının binasında 2019-cu ildə 147-ci teatr mövsümünün açılışı baş tutmuşdur. Bu il həmçinin İrəvan Dövlət Azərbaycan Dram Teatrının binası təmirə dayandırılıb. YUĞ Dövlət Teatrının bina məsələsinin həli istiqamətində də müəyyən işlər görülüb.

## MADDİ ASPEKT

2019-cu ildə teatr xadimlərinin rifahının yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılıb. Mart ayında ölkə prezidentinin və birinci vitse-prezidentin mədəniyyət xadimləri ilə görüşündən sonra incəsənətin bir sıra sahələrində olduğu kimi, teatr sahəsində də önəmli hadisələr baş verib. Azərbaycan Dövlət Musiqili və Azərbaycan Dövlət Rus Dram Teatrlarına Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Akademik statusu verilib, Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ümumilikdə 3 000 000 (üç milyon) manat vəsait ayrılıb. Dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları orta hesabla 50 faiz artırılıb. İl ərzində bir çox teatr xadiminə fəxri adlar və mükafatlar təqdim edilib.

## İNTEQRASİYA ASPEKTİ

Arxada qalan il ərzində Azərbaycan teatrının dünya teatr məkanına inteqrasiyası istiqamətində də az iş görülməyib. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanov Şimali Osetiya Dövlət Akademik Teatrında Ə.Əmirlinin "Varlı qadın" tamaşasını hazırlayıb. Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlova Gürcüstanın Axmeteli teatrında Tüncer Cücenoğlunun "Uçqun", Sankt-Peterburqda "Məktəb. Studiya. Emalatxana" festivalı çərçivəsində İsmayıl İmanovun "Astara bağları" pyeslərinə quruluş verib.

Teatrşünaslar sənətşünaslıq üzrə elmlər doktoru, professor İsrafil İsrafilov və sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov Qazaxıstan, Qırğızıstan, Türkiyə kimi ölkələrdə keçirilən bir sıra beynəlxalq teatr festivallarında iştirak edib. Elə özüm də bu il iki dəfə teatrşünas kimi Gürcüstanda keçirilən beynəlxalq tədbirlərə qatılmışam.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Dağıstan Respublikasının Mahaçqala şəhərində keçirilmiş Xəzərsahili Dövlətlərin Beynəlxalq Teatr Festivalında, Gəncə Dövlət Dram Teatrı Ukraynanın Kamenskoye şəhərində XI Beynəlxalq Teatr Festivalında, dOM Teatrı Rusiya Federasiyasının Ufa şəhərində keçirilən V Tuqanlıq Beynəlxalq Teatr Festivalında, YUĞ Dövlət Teatrı Rusiya Federasiyasının Kazan şəhərində keçirilən Novruz Beynəlxalq Teatr Festivalında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Qırğızıstanın Oş şəhərində VII Beynəlxalq "ART-ORDO-2019" Teatr Festivalında, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Albaniyanın Elbasan şəhərində "Skampa-2019" Modern Teatr Festivalında, Azərbaycan Dövlət Pantomima Teatrı Sofiya şəhərində Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunmuş tədbirdə ölkəmizi təmsil edib.

Sevindirici haldır ki, teatrlarımızın festival və qastrol coğrafiyası daha da genişlənir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqü Hüseynov ABŞ-ın Boston şəhərində P.Zyuskindin "Kontrabas" tamaşası ilə iştirak edib.

2019-cu il ərzində Azərbaycanda bir sıra dünya səviyyəli teatr kollektivləri çıxış edib. Xüsusilə III "M.A.P." Beynəlxalq Teatr Festivalı çərçivəsində nümayiş olunan xarici tamaşalar Bakı tamaşaçıları üçün əsil bayrama çevrilib.

B.Şukin adına Teatr İnstitutunda azərbaycanlı tələbələr üçün yaradılmış xüsusi aktyor-rejissor kursunun "Sinif konserti" və "Qafqaz təbaşir dairəsi" və "Ezop" tamaşalarının Akademik Milli Dram Teatrının səhnəsində nümayiş olunması da 2019-cu ilin əlamətdar hadisələrindən hesab edilə bilər.

Ümumiyyətlə, 2019-cu il festivallar sarıdan məhsuldar olub. Bu il ərzində M.A.P. Beynəlxalq Teatr Festivalı ilə yanaşı, Milli Teatr Gününə həsr "Boş məkanın dolğunluğu adlı" II Eksperimental tamaşalar Festivalı, I Lənkəran Beynəlxalq Teatr Festivalı, "2+1" adlı" III Eksperimental tamaşalar Festivalı keçirilib və bu festivallarda xarici ölkələrin, Bakının və bölgələrin müxtəlif teatr kollektivləri iştirak edib.

Ötən il ərzində həyata keçirilən ən önəmli tədbirlərdən Cəfər Cabbarlı həftəsi olub. Belə ki, Azərbaycan Respublikasın Prezidentinin Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamına uyğun olaraq, Akademik Milli Dram Teatrında C.Cabbarlının "Yaşar", Akademik Rus Dram Teatrında "Aydın", Gənc Tamaşaçılar Teatrında "Oqtay Eloğlu", Şəki Dövlət Dram Teatrında "Sevil", Lənkəran Dövlət Dram Teatrında "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş", Sumqayıt Dövlət Dram Teatrında "Solğun çiçəklər", Gəncə Dövlət Dram Teatrında "Dönüş" tamaşaları dövlət sifarişi yolu ilə hazırlanıb və həmin tamaşalar noyabr ayının sonuncu həftəsi ərzində Bakı şəhərində nümayiş olunub.

Ümidverici məqamlardan biri də Azərbayan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin beynəlxalq və yerli teatr festivallarda müntəzəm iştirakı və mükafatlar qazanması ilə bağlıdır. Təkcə onu deək kifayətdir ki, ADMİU Sabah qruplarının "Otello əfsanəsi" tamaşası Rusiya Teatr Sənəti İnstitutunda keçirilən "QİTİS - ustad dərsi" adlı festivalda və 39-cu ÜDKİ (VQİK) Beynəlxalq Tələbə Festivalının festivalın tərkib hissəsi olan 15-ci Beynəlxalq teatr yarışmasında, "Bokşçu" tamaşası isə Maltəpə və Mersində mükafatlara layiq görülüb.

## RETROSPEKTİV ASPEKT

Başa vurmaqda olduğumuz il ərzində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının dövlət statusu almasının 100, Azərbaycan Dövlət Pantomima Teatrının 25, YUĞ Dövlət Teatrının 30, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlunun 70 illik yubileyləri, o cümlədən Xalq artisti, prezident təqaüdçüsü Lüdmila Duxoxnayanın 75 illik yubiley tədbirləri keçirilib.

## PERSPEKTİV ASPEKT

2019-cu il həm də, nəhayət ki, Azərbaycan teatr məkanında özəl teatrların cüzi də olsa, canlanması ilə yadda qalıb. Belə ki, canlı teatr prosesinin yaradılması və alternativ istiqamətlərin dəstəklənməsi zərurətini anlayan dövlət özəl teatrlara dəstək olmağa başlayıb. Oktyabr-noyabr aylarında Azərbaycan Dövlət Akademik Rus Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Kukla və Şuşa Dövlət Musiqili Dram Teatrlarında ƏSA, Rebus, dOM, M-Teatr, Şahmat özəl teatrlarına tamaşa göstərmək üçün şərait yaradılıb. Hətta Mədəniyyət nazirliyi dOM Teatrının Beynəlxalq festivalda iştirakına dəstək göstərib. Şəxsən, mən Azərbaycan teatrı sənətinin gələcəyini özəl teatrlar şəbəkəsinin formalaşdırılmasında gördüyüm üçün bu bölməni perspektiv aspekt adı altında ümumiləşdirdim.

## ASPEKTSİZ ASPEKT

Bu icmal xarakterli yazıda təfərrüatlara varmayaraq, teatrımızın 2019-cu il ərzində keçdiyi prosesləri panoramlaşdırmağa çalışdım. Təbii ki, bütün prosesi əhatə etməyim və faktların hamısını göstərməyim qeyri-mümkündür. Bu icmal məqaləsində son günlərini yaşadığımız 2019-cu ilin ən mühüm, hər halda, şəxsən mənim əhəmiyyətli hesab etdiyim faktlar öz əksini tapıb. "Heç vaxt aldatmayan" faktlar deyir ki, 2019-cu il Azərbaycan teatrı üçün düşərli olub, ən azından kəmiyyət baxımından teatr prosesimizdə nəzərəçarpacaq canlanma yaranıb. Hərçənd onu da deməyə bilmərəm ki, bütün deyilənlərə və göstərilən faktlara rəğmən, Azərbaycan teatrı yüksək bədii, təşkilati səviyyəsindən danışmaq üçün hələ çox tezdir. Hələ də teatrlarımızın repertuarını təşkil edən tamaşaların əksəriyyəti orta həddən aşağıdır. Azərbaycan teatrının kadr potensialı ürəkaçan vəziyyətdə deyil. Hələ də ölkəmizin teatr idarəetmə sistemində ciddi qüsurlar mövcuddur. Dövlət proqramında nəzərdə tutulan, prosesdə öz real əksini tapmayan məqamlar kifayət qədərdir. Sözügedən proqramın ana xəttini təşkil edən məqamlardan biri - teatrlarda prodüserlik strukturunun formalaşdırılması, dövrün tələblərinə cavab verən teatr menecmentinin tətbiqi bizlərə uzaq yaşıl ada kimi görünür.

Bu isə o deməkdir ki, görüləcək işlər görülənlərdən xeyli artıqdır. Yazının sonunda 2019-cu il ərzində Azərbaycan teatrının inkişafı və təbliği naminə kiçicik bir addım da olsa, atan, canını, enerjisini, gözünün nurunu bu sənətə xərcləyən, teatrı sevən hər kəsə təşəkkürümü bildirmək istəyirəm. Yeni illərdə YENİ TEATR görmək ümidi ilə...